**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU**

---

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün elan edilmiş əsas qrant müsabiqəsinin (EİF-2013-9(15)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

# YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Ədəbiyyat nəzəriyyəsi: inkişaf mərhələləri və problemlər**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Məmməd Tahirə Qəşəm qızı**
Qrantın məbləği: **100 000 manat**
Layihənin nömrəsi: **EİF-2013-9(15)-46/35/5-M-28**
Müqavilənin imzalanma tarixi: **09 fevral 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2015-ci il – 01 sentyabr 2016-cı il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>Layihə üzrə ən geniş tədqiqat işi **“Ədəbiyyat nəzəriyyəsinin predmeti, prinsipləri və sahələri haqda müasir nəzəriyyələr”** istiqaməti üzrə aparılıb. Müasir dünyada ədəbiyyat nəzəriyyəsinin tədqiqat sahələri və onunla bağlı mövzuları xeyli zənginləşib. Qloballaşma dövründə ədəbiyyat nəzəriyyəsi iki böyük məktəbin nailiyyətləri nəzərə alınaraq inkişaf edir; həm Qərbin, həm də keçmiş sovet elminin nailiyyətləri dəyərləndirilir. Nəzərə alsaq ki, Azərbaycanda ədəbiyyat nəzəriyyəsi əsasən maerialist-marksist sovet nəzəriyyəsi tipinə mənsub olmuşdur, o zaman hazırkı digər nəzəriyyələrin də təcrübəsinin öyrənilib nəzərə alınmasına ehtiyac var. Bundan əlavə, milli ədəbiyatın tədqiqində azərbaycançılıq ideologiyasına əsasən ədəbiyyatımızın arşdırılması və onun özünəməxsus strukturundan irəli gələn nəzəriyyələrin və təhlil metodlarının müəyyənləşdirilməsi istiqamətində də araşdırmalar aparılmışdır.<br>Göstərilən istiqamət üzrə aşağıdakı mövzular yerinə yetirilmişdir: |

- Ədəbiyyat nəzəriyyəsi ədəbiyyatşünaslığın əsas sahələrindən biri kimi
- Ədəbiyyat nədir
- Liberal Arts, filologiya və ya ədəbiyyat araşdırmaları tarixi
- Mifopoetika və filoloji fikirdə mif konsepsiyaları
- Neosufizm: yaradıcılıq və nəzəriyyə
- Bədii ədəbiyyatın yaranması və yazılması formaları
- Ədəbiyyatda darvinizm və ya mədəniyyət modelləri konsepsiyası
- Kanonikal tekst və onun modifikasiyası
- Arxetip semantik reinterpretasiya vahidi kimi və Azərbaycan ədəbiyyatınında sufi terminləri
- Ədəbiyyat nəzəriyyəsi terminlərinin Azərbaycan dilinə tərcüməsi və ya uyğunlaşdırılması
- Ədəbiyyat nəzəriyyəsinə aid terminlərin türk dillərində işlənmə problemi

Layihədə "Dünya ədəbiyyatı, müqayisəli ədəbiyyat və milli ədəbiyyat problemi" üzərində də bir neçə mövzuda araşdırma aparılmışdır:

- "Milli ədəbiyyat tarixi" yenu siyasi identifikasiyalar kontekstində və ya milli ədəbiyyatın meyarları
- Konvergensiya mədəniyyətindən… konvergensiya mədəniyyətinə
- Epos tarix və mif qovşağında
- Orta əsrlər Azərbaycan ədəbiyyatı və milli identifikasiya
- Milli ədəbiyyat dünya ədəbiyyatının komponenti kimi

Layihədə **"Qədim dövr (Yunan, Roma, Hind, Çin) və orta əsrlər dünya ədəbi-nəzəri fikri"** üzərində də tədqiqat aparılmışdır. Bu mövzuda əsasən aşağıdakı problemlər araşdırılmışdır:

- Qədim sivilizasiyalarda ədəbi janrların və növlərin formalaşması və ədəbiyyat ənənələri əsasında nəzəriyyələrin meydana gəlməsi;
- Fərqli dünyagörüşlərinin və ədəbiyat ənənələrinin nəzəri prinsiplərin formalaşmasında rolu
- Nəzəriyyələrin ədəbiyyatların təkamülünə yol açması
- Orta əsrlər qərb poetika elminin inkişafı

Orta əsrlərdə həm Qərb, həm də Şərqin poetika ənənələri nəzərə alınmışdır. Xüsusən müasir ədəbiyyata, daha çox da postmodernizmə təsiri olduğu üçün sufizmin poetikası tədqiqatlarda diqqət mərkəzində saxlanılmışdır.

- Divan ədəbiyyatında ədəbi cərəyanlar problemi, mövzusu da orta əsrlərin Şərq poetikası əsasında yazılmışdır.

Ədəbiyyat nəzəriyyəsinin inkişaf tarixi və mərhələlərinin müəyyənləşdirilməsi istiqamətində layihədə **"Azərbaycan ədəbiyyat nəzəriyyəsinin mərhələləri və əsas təmsilçiləri"** haqda bir neçə mövzu üzrə tədqiqat yerinə yetirilmişdir. Mirzə Fətəli Axundzadə Azərbaycanda yeni tipli ədəbiyyat nəzəriyyəsinin banisi kimi qəbul edilərək onun əsasını qoyduğu ənənələr müəyyənləşdirilmişdir. Daha sonra Azərbaycanda ədəbiyyat nəzəriyyələrinin inkişafında dərsliklərin rolu nəzərə alınaraq onlar üzərində bir neçə mövzuda araşdırma aparılmışdır:

- Hüseyn Cavid və Abdulla Şaiqin "Ədəbiyyat dərsləri" dövrünün türk ədəbiyyat nəzəriyyələrinə aid kitablar kontekstində
- Azərbaycanda marksizm nəzəriyyəsinə əsaslanan ilk ədəbiyyatşünaslıq dərsliyi – "Ədəbiyyatdan iş kitabı"
- Baqrinin "Ədəbiyyat biliyinə başlanğıc" kitabı Azərbaycanda ədəbiyyat nəzəriyyəsinə aid ilk universitet dərsliyi kimi
- Cəfər Xəndanın "Ədəbiyyat nəzəriyyəsi" dərsliyi müasir elmi-ideoloji kontekstdə
- Mikayıl Rəfilinin "Ədəbiyyat nəzəriyyəsi" dərsliyi sovet ədəbiyyat nəzəriyyələri və ideologiyası

kontekstində
- Mir Cəlal Paşayev və Pənah Xəlilovun "Ədəbiyyatşünaslığın əsasları" dərsliyində ədəbi-nəzəri kateqoriyaların müəyyənləşdirilməsi prinsipləri və ədəbiyyat nəzəriyyəsinin tədqiqat predmeti
- Müstəqillik dövrünün ədəbiyyat nəzəriyyəsi dərslikləri
Müqayisə və tam təsəvvür yaratmaq üçün sovet və qərb nəzəriyyələrini əlaqələndirən, yeni fəlsəfi-elmi təlimlərin təsirilə yaranan Qərb ədəbiyyat nəzəriyyələri haqda mövzuda da tədqiqat aparılmışdır:

- Tarixi transformasiyalar və muasir Qərb ədəbiyyatshunasligi: problemə baxiş

Azərbaycanda ədəbiyyat nəzəriyyəsinin inkişafında xidməti olan görkəmli nəzəriyyəçilər haqqında da ayrıca mövzular üzrə tədqiqatlar aparılmışdır. 60-cı illərdə ədəbiyyat nəzəriyyəsi üzrə yaradıcılıq metodu və klassik ədəbiyyat üzərində apardığı araşdırmalarla və yetişdirdiyi ədəbiyyatşünas kadrları ilə nəzəriyyə məktəbi yaradan Məmməd Cəfər Cəfərova layihə çərçivəsində mövzu həsr olunmuşdur. Onun məktəbinin layiqli davamçılarından Yaşar Qarayev haqqında da ayrıca oçerk yazılmışdır.
Sovet hakimiyyətinin dağılmasından sonra Azərbaycanın müstəqillik əldə etməsi ilə əlaqədar Azərbaycanda nəzəriyyənin yeni inkişaf mərhələsinə qədəm qoyması dərsliklərdən daha çox ayrı-ayrı aktual tədqiqatlarda özünü göstərdi. Bunlar haqda nəzəri təsəvvür yaratmaq üçün "Müstəqillik dövründə Azərbaycanda ədəbiyyat nəzəriyyəsinin inkişaf meylləri" mövzuda da tədqiqat aparılmışdır.

Ədəbiyyat nəzəriyyəsinin mərhələlərində ədəbi cərəyanların rolu nəzərə alınaraq **"Yaradıcılıq metodları və ədəbi cərəyanların (dünya və Azərbaycan təcrübəsi əsasında) araşdırılması"** probleminə də bir neçə mövzu ayrılmışdır:
- Klassizmin tipoloji xüsusiyyətləri, nəzəriyyəçiləri və Azərbaycan ədəbiyyatı
- Maariçiliyin tipoloji xüsusiyyətləri, nəzəriyyəçiləri və Azərbaycan ədəbiyyatı
- Realizmin tipoloji xüsusiyyətləri, nəzəriyyəçiləri və Azərbaycan ədəbiyyatı
- Romantizmin tipoloji xüsusiyyətləri, nəzəriyyəçiləri və Azərbaycan ədəbiyyatı
- Sentimentalizmin tipoloji xüsusiyyətləri, nəzəriyyəçiləri və Azərbaycan ədəbiyyatı
- Simvolizmin tipoloji xüsusiyyətləri, nəzəriyyəçiləri və Azərbaycan ədəbiyyatı
- Modernizmin tipoloji xüsusiyyətləri, nəzəriyyəçiləri və Azərbaycan ədəbiyyatı
- Postmodernizmin tipoloji xüsusiyyətləri, nəzəriyyəçiləri və Azərbaycan ədəbiyyatı

  Ədəbi cərəyanlarla bərabər, eyni zamanda nəzəriyyə məktəbləri də tədqiq olunmuşdur
- Rus formal məktəbi
- Müasir nəzəriyyə məktəbləri

Müasir dövrdə **ədəbiyyatşünaslığın sahələri, ədəbi növlərin yenidən təsnifi** də aktual problemlər sırasındadır. Bu sahədə Akademik İsa Həbibbəylinin yeni təsnifatları nəzərə alınmış və Azərbaycan ədəbiyyat nəzəriyyəsinin nailiyyətləri kimi onlardan da istifadə olunmuşdur.

Tədqiqatların yerinə yetirilməsində mövzulara uyğun olaraq Araşdırmalarda analiz, müqayisəli təhlil, struktur-semantik, müqayisəli tipologiya, hermenevtika,
mədəniyyət matrisası-izomorf nəzəriyyəsi, Prizmatik tərcümə metodunda əbcəd əlifbası metodu;
stereotip-arxetip-prototip nəzəriyyəsi,
milli ədəbiyyat konsepsiyası və s.
kimi üsul və yanaşmalardan istifadə edilmişdir.

| | |
|---|---|
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı) 75%* |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>Ədəbi mətni mif mətnindən fərqləndirən kriteriyaların sistemləşdirilməsi<br><br>-Ədəbiyyyat nəzəriyyəsinin predmeti ədəbiyyatdirsa, ədəbiyyat nədir: folklor ədəbiyyatdırmı? Yazılı mətn və folklor nə ilə fərqlənir, doğrudanmı folklor xalq ədəbiyyatının şifahi yaranmış formasıdır?<br><br>-Ədəbiyyat -ədəb qaydalarıdırsa, literature – letter, literacy - hərf, savadla bağlıdırsa, hansı səbəbdən bu iki analyış sinonim təcümə olunub<br>- XXəsr maarifçiliyinin intellektual mühit və yaradıcılıq metodu kontekstində tipologiyası<br>- Azərbaycan ədəbiyyatında tənqidi realizmin müasir fəlsəfi nəzəriyyələr əsasında dəyərləndirilməsi və tənqidi realizmin əsas prinsipinin “tipik xarakterin tipik şəraitdə” göstərilməsindən daha çox həyatı təbəqələr və laylar prinsipi ilə əks etdirməsində olmasının əsaslandırılması;<br>- XX əsrdə ədəbiyyat nəzəriyyəsi məktəbinin metodlar əsasında qurulması və onun əsas təmsilçilərinin müəyyənləşdirilməsi<br>-Sentimentalizm və klassik Azərbaycan poeziyasının müqayisəsin nəticəsi olaraq əsaslandırılmışdır ki, divan şeirini sentimentalizm nöqteyi-nəzərindən qiymətləndirmək doğru deyil. Divan şeiri daha mürəkkəb yanaşmanın nəticəsidir və onun qəhrəmanının içində olduğu vəziyyət “hal”dır. Sentimentalizmin qəhrəmanı isə fərdi hisslərin girdabındadır. Divan şeiri nöqteyi –nəzərindən yanaşdıqda sentimentalist qəhrəman çox primitiv görünür. Tədqiqatda ilk dəfə olaraq hal və hiss qarşılaşdırılaraq ədəbiyyat nümunələri ilə müqayisəyə cəlb olunmuşdur.<br>- Milli ədəbiyyat meyarlarının ümumi prinsipləri tətbiq olunmaqla Azərbaycan ədəbiyyatının meyarları müəyyənləşdirilmişdir. Dünya ədəbiyyatşünaslığında farsdilli Azərbaycan ədəbiyyatının yanlış olaraq fars ədəbiyyatı kimi səciyyələndirilməsinə cavabın nəzəri-metodoloji prinsipləri hazırlanmışdır.<br>- Postmodernist ədəbiyyatın əsas struktur xüsusiyyətləri Azərbaycan ədəbiyyatı ilə qarşılışdırılaraq dünya ədəbiyyatının müasir prosesinin uyğun faktları müəyyənləşdirilmiş və onun ədəbiyyatımızda təzahürlərinin nəzəri spesifikası müəyyənləşdirilmişdir.<br>- Nəzəri fikirdə poetika və izm mərhələlərinin ayrılma məqamı və xüsusiyyətləri, səbəbləri, şərtləri ilk dəfə olaraq araşdırılmış və prosesin nəzəri əsasları müəyyənləşdirilmişdir.<br>- İdeologiya və ədəbi cərəyan problemi qarşılıqlı əlaqədə araşdırılmış, onların bir-birinə təsiri məsələsinə aydınlıq gətirilmişdir. Maarifçiliyin mərhələ və tip təsnifatı problemində ideologiyaların rolu məsələsi əsaslandırılmışdır.<br>- Qloballaşma dövründə ənənə və arxetip problemi milli zəmində araşdırılaraq bədii mətndə mifoloji ornamentallıq müddəası irəli sürülərək və əsaslandırılmışdır.<br>- Qədim sivilizasiyalarda janrların təşəkkülü, arxaik janrların yayılma coğrafiyası, təsnifatı müqayisəli şəkildə araşdırılaraq ilkin janrlar haqda yeni nəzəri müddəalar irəli sürülmüşdür;<br>- Bir sıra süjetlərin mənşəyinin daha qədimdən – allahlar panteonundan başlanması məsələsinə aydınlıq gətirilmişdir;<br>- H.Cavid və A.Şaiqin ədəbiyyat nəzəriyyəsinə aid dərsliyi Türk-Osmanlı ədəbiyyat nəzəriyyələri ilə müqayisə olunmuşdur;<br>- C.Xəndanın ədəbiyyat nəzəriyyəsi sahəsindəki fəaliyyəti sistemləşdirilmiş, onun poetika |

mütəxəssisi kimi gətirdiyi yeniliklər müəyyənləşdirilmişdir. İdeoloji və elmi görüşlərindəki mübahisəli məsələlərə aydınlıq gətirilmişdir;

- İlk dəfə olaraq terminologiya probleminin elmi olmaqla bərabər, həm də strateji-ideoloji məsələ olması məsələsi gündəmə gətirilmiş və türk xalqlarının ortaq ədəbiyyat nəzəriyyəsi terminlərinin yaranması üçün müasir texnologiyanın imkanlarından faydalanma yolları haqda təkliflər irəli sürülmüşdür.

- Beynəlxalq ədəbi-nəzəri fikirdə mövcud olan mifoloji konsepsiyalar bir araya gətirilərək sistemləşdirilmiş və genetik konstruksiyalar əsasında yeni müddəalar irəli sürülmüş, müasir Azərbaycan ədəbiyyatında mifopoetika ilə bağlı strukturların tədqiq olunub, üzə çıxarılması prinsipləri müəyyənləşdirilmişdir.
- Neosufizm müasir ədəbiyyatın araşdırılmasının əsas nəzəriyyələrindən biri kimi irəli sürülmüş, sufizm anlamları ilə neosufizm hadisəsi qarşılaşdırılaraq ədəbi mətndə onların müəyyinləşdirilməsi yolları sistemləşdirilmişdir. Tədqiqatda neosufizmin həm bir nəzəriyyə, həm də sənət hadisəsi kimi əsaslandırılmışdır. Yeni dövr və müasir Şərq, o cümlədən Azərbaycan ədəbiyyatının tədqiqində neosufizmin prinsiplərinin nəzərə alınmasının vacibliyi ədəbi mətnlərlə əsaslandırılmışdır. Bundan əlavə, dünya ədəbiyyatında da sufizmdən təsirlənmə hadisəsinə az rast gəlinmədiyi üçün tədqiqat həmin mətnlərin də tədqiqi üçün əhəmiyyətlidir.
- Arxetip haqqında nəzəriyyələr dəyərləndirilərək, ona müxtəlif istiqamətdən olan baxışlar sistemləşdirilmiş, arxetipin yaranma və yaşama xüsusiyyətləri, funksiyası haqda yeni müddəalar irəli sürülmüşdür. Arxetipin mənşəyini müəyyənləşdirmə mexanizmi haqda elmi konsepsiya təqdim edilmişdir.

-Antik Yunan ədəbiyyatının növ və janr təsnifatının sonrakı mərhələlərin nəzəri prinsipləri ilə müqayisəsi və yunan janr bölgü prinsipinin ənənvi Şərq janrlarının bölgü prinsipləri ilə qarşılaşdırılması;

- Ədəbiyyat nəzəriyyəsinin incəsənət və fəlsəfəni əlaqələndirən bir elm sahəsi kimi başlanğıcını hardan alması məsələsinə aydınlıq gətirilir; Liberal arts və ədəbiyyat münasibətləri, onların müştərkliyi və ayrılığı problemi ədəbiyyat nəzəriyyəsinin inkişafı mərhələləri baxımından öyrənilir;

-Sovet dövrünün ilk ədəbiyyat nəzəriyyəsi dərsliklərinin araşdırılması ilə ədəbiyyatımıza müxtəlif mərhələlərdə təsir edən metodoloji prinsiplər tədqiq edilərək üzə çıxarılır; ədəbiyyat nəzəriyyəsi və dövlətçilik ideologiyası, ümumiyyətlə, nəzəriyyə və ideologiya arasında kəsişən məqamlar müəyyənləşdirilir;

-darvinizm və mədəniyyət modelləri konsepsiyası Azərbaycan ədəbiyyat nəzəriyyəsinə ilk dəfə olaraq bu tədqiqatla gətirilir. Bioloji təkamül nəzəriyyəsinin tətbiqi ilə formalaşan mədəni darvinizm nəzəriyyəsinin dünya ədəbiyyatının öyrənilməsində istifadə yolları müəyyənləşdirilir;

- - klassik Azərbaycan ədəbiyyatı ilk baxışdan ona ən yaxın görünən romantizm cərəyanının tipoloji xüsusiyyətləri ilə qarşılaşdırılaraq onlar arasındakı eyniliklər və fərqlilikləri əsaslandırılır.

- müstəqillik dövründə nəzəriyyəyə gətirilən yeni mövzular, metod və metodologiyalar, fəlsəfi yanaşma araşdırılaraq üzə çıxarılır;

- Yeni nəzəriyyəçilər nəslinin əsas aparıcı simaları və tədqiqat istiqamətləri müəyyənləşdirilir;

- Azərbaycan nəzəriyyəçilərinin hansı ədəbi məktəblərə daha çox istinad etməsi və davam etdirdikləri ənənələr araşdırılır;

- Azərbaycan ədəbiyyatının özünəməxsusluqlarını üzə çıxarmağa imkan verən nəzəriyyələr və təhlil metodologiyaları dəyərləndirilir.

- modernizmin ədəbiyyat nəzəriyyəsi və fəlsəfi fikirdə tutduğu yer, əsas cərəyanları, təmsilçiləri və tipoloji xüsusiyyətləri haqqında sistemli məlumat verildikdən sonra Azərbaycanda modernizmin meydana gəlməsi və dinamikası araşdırılır. Azərbaycan modernizminin özünəməxsusluqları təhlil edilib, üzə çıxarılır.

| | |
|---|---|
| | - formalizm nəzəriyyə məktəbinin nəzəri prinsiplər, təmsilçiləri haqda məlumat verdikdən sonra onlara müasir nəzəriyyələrdə verilən önəm tədqiq edilir. Struktural yanaşmada formal məktəbin başlanğıc verdiyi ənənələr müəyyənləşdirilir və onların Azərbaycan ədəbiyyatşünaslığına təsiri məsələlərinə aydınlıq gətirilir.<br>- Milli ədəbiyyatın, daha geniş miqyasda Şərq ədəbiyyatının tədqiqi üçün onun özündə formalaşan strukyurların nəzərə alınması vacibdir. Bu baxımdan iki önəmli istiqamətin tədqiqi texnologiyasının prinsiplərini müəyyənləşdirmək mütləq nəzərə alınmalıdır. Bunlardan biri milli mifologiya, digəri isə sufizm ənənələridir. Tədqiqatda sufizmin fərqli ədəbi cərəyanlarda təzahürü neosufizm hadisəsi kimi dəyərləndirilir və neosufizmin parametrləri sistemləşdirilərək təhlil metodologiyası təqdim olunur.<br>- Ədəbi cərəyanın kateqoriya prinsipləri əsas götürülərək divan ədəbiyyatının istiqamətləri dəyərləndirilir. Ədəbi cərəyan və fəlsəfə problemi qarşılaşdırılmasında divan ədəbiyyatında təsəvvüf, hikəmi şeir, hind səpgisi, məhəlliləşmə kimi ədəbi cərəyanların olması haqda son dövrdə Türkiyə ədəbiyyatşünaslığında irəli sürülən müddəalar müdafiə edilir. İlk dəfə bu tədqiqatda mühacir Azərbaycan ədəbiyyatşünası elmlər doktoru Səlim Rəfiqin məhəlliləşmə cərəyanının müəyyənləşməsi sahəsində apardığı tətqiqatlar arxiv araşdırmaları sayəsində üzə çıxarılır.<br>- Konvergensiya – sərhəd mədəniyyətlər nəzəriyyəsinin mahiyyəti izah olunaraq Azərbaycan ədəbiyyatına tətbiqi texnologiyası müəyyənləşdirilir. Qloballaşma dövründə dilə daxil olunan yeni nəzəriyyə terminləri konvergensiya nəzəriyyəsi əsasında izah olunur.<br>- Müasir dövrdə Qərb nəzəriyyələrində özünü göstərən yeni təhlil metodları və nəzəriyyə dəyərləndirmələri Azərbaycan ədəbiyyatşünaslığı və ədəbiyyatı ilə müqayisədə araşdırılır. Yeni Qərb metodologiyasının texnologiya mexanizmi açıqlanır və təhlil imkanları tətbiq olunan nümunələr əsasında izah edilir.<br>-<br>- |
| **4** | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | *(burada doldurmalı)*<br>1. P.İsayeva. Mifopoetika və Filoloji fikirdə mif konsepsiyaları. (monoqrafiya) Bakı, “Elm və təhsil” , 2016. 127 səh.<br>2. .R.Qeybullayeva. *Epos tarix və mif qovşağında: “Kitabi Dədə Qordud” və “Nibelunqlar haqqında nəğmə” əsasında* (çap olunub - Ədəbiyyat və mədəniyyət nəzəriyyəsi seçmə fənni üçün dərs vəsaiti). Bakı, 2016<br>R.Qeybullayeva. *Ədəbiyyatda darvizinizm, multikulturalizm və ya KDG və NN eposlarında mədəniyyət patternləri* (çapa təqdim olunub - Ədəbiyyat və mədəniyyət nəzəriyyəsi seçmə fənni Bakı,2016.<br>3. T.Məmməd. Neosufizm: yaradıcılıq və nəzəriyyə (monoqrafiya)<br>AMEA Ədəbiyyat İnstitunun Elmi Şurasında müzakirə edilib və çapa tövsiyə olunub |

4.T.Məmməd. Maarifçilik və onun XX əsr Azərbaycan ədəbiyyatında təzahür xüsusiyyətləri . Poetika.İzm. 2-ci say. Bakı – 2016 . səh 109-117
5. T.Məmməd. Azərbaycanda marksizm nəzəriyyəsi əsasında yazılmış ilk ədəbiyyatşünaslıq dərsliyi – "Ədəbiyyatdan iş kitabı" . Literature.az
6. Neosufizmin və postmodernizmin "Sirri-zəmanə"si. Senet.az
7. Şərq poetika sistemi və Paulo Koelonun "Kimyagər"i. Senet.az
8. P.İsayeva. Postmodernizm və Azərbaycan ədəbiyyatı. Poetika.İzm. 2-ci say. Bakı – 2016 . səh 117-126
9. T.Məmməd. Müstəqillik dövründə Azərbaycanda ədəbiyyat nəzəriyyəsinin inkişaf meylləri, mövzusunda məruzənin tam mətni TDK –nın keçirəcəyi qurultayın (Türkiyə, Ankara) materiallarına məruzə kimi dinlənilmək və çap üçün qəbul olunub.

10. T.Məmməd. Səlim Rəfiqə görə divan ədəbiyyatında məhəlli və ictimai motivlər. «Azərbaycan mühacirət ədəbiyyatı: reallıqlar, problemlər, vəzifələr» mövzusunda AMEA-nın keçirəcəyi Beynəlxalq konfransın materiallarına çap və məruzə üçün qəbul olunub.

11.R.Qeybullayeva. Liberal Arts, filologiya və ya ədəbiyyat araşdırmaları tarixi – məqalə, 2016 (Prof. Məmməd Qocayevin 75 illik yubileyinə həsr olunmuş məcmuə) – çapa qəbul olunub
12.P.İsayeva. Modernizmin tipoloji xüsusiyyətləri və XX əsr Azərbaycan ədəbiyyatı. Filologiya məsələləri jurnalına çapa qəbul olunub
13.T.Məmməd. Bədii yaradıcılığın tədqiqində mifoloji konsepsiyaların rolu.(məqalə) P.İsayevanın "Mifopoetika və mifoloji fikirdə mif konsepsiyaları" kitabına ön söz. Səh.3-7
14.T.Məmməd.Sentimentalizmin nəzəri-estetik prinsipləri və Azərbaycan divan ədəbiyyati."Azerbaycanşinaslık:geçmişi, bugünü, geleceyi" Uluslararası sempozyum. 21-23 Ekim, Kars.http://194.27.41.8/dosyalar/azer_bil_kitap.pdf. Səh.802-809
15.T.Məmməd. Ədəbiyyat nəzəriyyəsinə aid müasir terminlərin türk dillərində işlənmə problemi. "Türk xalqları ədəbiyyatı: mənşəyi, inkişaf mərhələləri və problemləri" mövzusunda AMEA Ədəbiyyat İnstitutunda keçirilən beynəlxalq elmi konfransın materialları. 1-2 dekabr 2015-ci il.
16.T.Məmməd. Qədim Sivilizasiyalarda ədəbi növ, janr və süjetlərin təşəkkülü problemi." Müqayisəli ədəbiyyat və mədəniyyət: *Ədəbiyyatın və mədəniyyətin başlanğıc meyarlari*" mövzusunda BSU və AzərbaycanMüqayisəli Ədəbiyyat Assosiyasının 27-28 noyabr 2015-ci ildə birgə keçirdiyi beynəlxalq konfransın tezisləri.
17. R.Qeybullayeva.Milli Ədəbiyyat nəzəriyyəsi yoxsa Milli Ədəbiyyat tarixi nəzəriyyəsi. ." Müqayisəli ədəbiyyat və mədəniyyət: *Ədəbiyyatın və mədəniyyətin başlanğıc meyarlari*" mövzusunda BSU və Azərbaycan Müqayisəli Ədəbiyyat Assosiyasının 27-28 noyabr 2015-ci ildə birgə keçirdiyi beynəlxalq konfransın tezisləri
18. P.İsayeva.Yeni dövlət quruculuğu və ya keçid dövrdündə mifin ədəbiyyatda rolu. " Müqayisəli ədəbiyyat və mədəniyyət: *Ədəbiyyatın və mədəniyyətin başlanğıc meyarlari*" mövzusunda BSU və Azərbaycan Müqayisəli Ədəbiyyat Assosiyasının 27-28 noyabr 2015-ci ildə birgə keçirdiyi beynəlxalq konfransın tezisləri
19.P.İsayeva.Müasir nəsrdə mif ornamentallığı. Məqalə Royal Society of south Australia jurnalına çapa göndərilmişdir

20. R.Qeybullayeva.Arxetip semantik reinterpretasiya (təkraryozum) vahidi kimi. (məqalə). AMEA-nın "Xəbərlər"ində çapa qəbul olunmuşdur.
21. T.Məmməd."Türk xalqları ədəbiyyatında romantizm cərəyanının təşəkkül və inkişaf xüsusiyyətləri" mövzusunda məruzənin tezisi "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş

Beynəlxalq Konfransa təqdim olunub

22. R.Qeybullayeva. Translation or itinerary of Azerbaijani literary terms in thresholds of culture. Tezisgöndərilmişdir. 21st World Congress of the International Comparative Literature Association
23. Pərvanə İsayeva. Antik ədəbiyyatda növ və janr sistemi.Məqalə Poetika.izm jurnalının üçüncü nömrəsinəçapa qəbul edilmişdir.

**5** İxtira və patentlər, səmərələşdirici təkliflər

*(burada doldurmalı)*

**6** Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir)

*(burada doldurmalı)*

**Tahirə Məmməd**

Qazaxıstan Respublikası, Astana şəhəri, Beynəlxalq Türk Akademiyası, 07-18 sentyabr 2015

Layihə ilə əlaqədar olaraq bizimlə bir sıra ortaq dəyərləri və ədəbiyyat ənənələrini paylaşan Qazaxıstan Respublikasında ədəbiyyat nəzəriyyəsi problemlərinin necə araşdırılmasını öyrənmək məqsədilə ezamiyyətdə olmağın faydalı nəticələri olmuşdur. Ezamiyyətdən məqsəd həm, ədəbiyyat nəzəriyyəsinə aid Qazaxıstan alimlərinin araşdırmaları ilə tanış olmaq, həm də "Ədəbiyyat nəzəriyyəsi: inkişaf mərhələləri və problemlər" layihəsinin təqdimatını keçirmək idi. Hər iki məqsəd yerinə yetirilmişdir.

Beynəlxalq Türk Akademiyasının Prezidenti professor Darxan Kıdırali ilə görüşdən sonra , onun tapşırığı ilə Akademiyanın elmi katibi Şərip Amantay Akademiyanın əməkdaşları ilə T.Məmmədin görüşü təşkil edilmiş layihənin təqdimatı və fikir mübadiləsini keçirilmişdir. Akademiya əməkdaşları layihəni yüksək dəyərləndirmiş və Türk xalqlarının ədəbiyyatlarının öyrənilməsi sahəsində ortaq metodologiyanın hazırlanması üçün əhəmiyyətli addım saymışılar. Akademiyanın prezidenti gələcəkdə ortaq metodologiya və terminologiya sahəsində aparılacaq araşdırmalarda əməkdaşlıq edə biləcəyimizi söyləmişdir. Akademiyanın kitabxanasında türk xalqlarının ədəbiyyatı və mədəniyyəti ilə bağlı kitablarla tanışlıq baş tutmuşdur.

Ezamiyyət müddətində Beynalxalq Türk Akademiyasının Qumilyov adına Avroasiya Universiteti ilə sıx əməkdaşlığını nəzərə alaraq Universitetin professor-müəllim heyəti ilə görüş və layihə ilə bağlı fikir mübadiləsi aparılmışdır. Avroasiya Universitetinin prorektoru, nəzəriyyəçi alim, akademik Dikhan Hamzabekulu, Qazax ədəbiyyatı kafedrasının müdiri, akademik Kaskabasov Seyit Askarülü, Türk Araşdırmaları Mərkəzinin direktoru professor Nurilya Şaymerdinova və başqa əməkdaşların iştirakı ilə keçirilən görüşdə layihə haqqında geniş məlumat verilmiş və fikir mübadiləsi aparılmışdır. Qazaxıstanda ədəbiyyata aid bir neçə mühüm layihəyə rəhbərlik edən Akademik Seyit Kaskabasovun iş təcrübəsi ilə tanışlıq xüsusi əhəmiyyət kəsb edir.

Avroasiya Universitetinin zəngin elmi kitabxanasından da faydalanaraq ədəbiyyatşünaslığa aid bir neçə kitabın (qazax və rus dillərində) elektron versiyası əldə edilmişdir.

Ezamiyyət müddətində Qazaxıstan Respublikasının Milli Elmi Kitabxanasında da layihə mövzuları üzrə tədqiqat –araşdırma aparılmışdır (Oxucu bileti 72062). Orada Qazaxıstan Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunda və Universitetlərin Ədəbiyyat kaferalarında aparılan elmi tədqiqatların nəticələri ilə tanış olunmuş, Milli Elmi Kitabxanadan layihə ilə bağlı tədqiqatlarda istifadə etmək üçün maraqlı materiallar toplanılmışdır.

Ezamiyyət müddətində Qazaxıstan alimlərinin ədəbiyyat nəzəriyyəsinə baxışında hansı istiqaməti əsas götürdükləri müəyyənləşdirilmişdir. Müasir Qərb nəzəriyyələri əsasən cərəyanlar üzərində

qurulur. Ədəbiyyatşünaslığın sahələri arasında nəzəriyyə sanki fəlsəfə və ədəbiyyatın ortaq məkanıdır. Ənənəvi poetikaya maraq azalıb. Postsovet məkanında janr, üslub, metod məsələləri yenə də aktualdır. Janrların qarışıqlığı son dövr nəzəriyyələrində janr kriteriyalarına marağı Qərbdə zəiflədib. Qazaxıstanda müasir Qərb nəzəriyyələrinin öyrənilməsinə maraq artsa da, müasir təhlil metodlarından istifadə tam yayılmayıb. Qərb nəzəriyyələrinə aid müntəxəbatların çap olunması yaxşı təcrübə kimi diqqəti cəlb edir.
Qazaxıstanda Şərq poetika nəzəriyyəsinin öyrənilməsinə də maraq artıb. Son vaxtlar Fərabinin və Nəvainin nəzəri irsinə də tədqiqatlarda müraciət olunur, Fərabinin əsərləri tərcümə olunaraq ədəbiyyat nəzəriyyəsi müntəxəbatlarına daxil edilir. (Tədqiqatlarda istifadə üçün Milli Elmi Kitabxanadan onların surətlərini də da alınmışdır)
Ezamiyyət zamanı daha çox nəzəriyyəçilərin milli poetika ənənələrinə nə dərəcədə əhəmiyyət verməsi məsələsini aydınlıq gətirilməyə çalışılmışdır. Bundan başqa, ədəbiyyat nəzəriyyəsinin əsas terminlərinin müqyisəli söz sırasının tərtibi üçün material toplanılmışdır. Araşdırılan bu problem nəticəsində “Türk xalqları ədəbiyyatı: mənşəyi, inkişaf mərhələləri və problemləri”(1-2 dekabr 2015-ci il, AMEA Ədəbiyyat İnstitutu) beynəlxalq konfrasında “Ədəbiyyat nəzəriyyəsinə aid terminlərin türk dillərində işlənmə problemi” mövzusunda məruzə edilmişdir (Konfrans materialları səh.361-366).

**Pərvanə İsayeva.**

Layihə iştirakçısı Pərvanə İsayeva İyul ayında (5-11 iyul) Moskva şəhərində bir həftəlik elmi ezamiyyətdə olub. Ezamiyyət müddətində Rusiya Federasiyası Elmlər Akademiyasının Qorki adına Dünya Ədəbiyyatı İnstitunda Layihə ilə bağlı məlumat verib, İnstitun direktoru, elmi katibi və Ədəbiyyat nəzəriyyəsi şöbəsinin əməkdaşları ilə görüşmüş, fikir mübadiləsi aparmışdır. Ədəbiyyat nəzəriyyəsi şöbəsinin elmi iş planları tanış olmuş, onların bizim üzərində tədqiqat apardığımız mövzulara uyğunluğu məsələsi ilə maraqlanmışdır. Müqayisə və istinad üçün bizim mövzularla bağlı materiallar əldə etmişdir. İnstitutun kitabxanasında elmi ədəbiyyatlarla tanış olmuşdur. Moskva şəhərinin kitab evlərindən kitablar almışdır.

M.Qorki adına Ədəbiyyat İnstitutunun əməkdaşı filologiya elmləri doktoru V.V.Polonskinin “Ənənə və modernizm arasında” adlı tədqiqatında irəli sürülən müddəalar Araşdırma predmeti istiqamətində son dərəcə maraqlı və məntiqli göründüyündən P.İsayeva həmin araşdırmanın mətni üzərində müqayisəli araşdırma aparıb. Müəllifin XIX –XX əsrlərdə rus ədəbiyyatının tarixi və poetika məsələlərinə yanaşma tərzi Azərbaycan ədəbiyyatı materiallarına tətbiq olunur. Nəzəri fikrin klassik və modernist bucaqlarının məharətlə birləşdirən müəllifin gəldiyi qənaətlər müasir ədəbi nəzəri fikirdə özünəməxsus mövqeyi ilə seçilir.

M.Qorki adina Ədəbiyyat İnstitutunun filologiya elmləri doktoru A.Kasatkinanın rəhbərlik etdiyi “Ədəbiyyat nəzəriyyəsi ” şöbəsinin üzərində işlədiyi dörd cildlik “Ədəbiyyat nəzəriyyəsi” əsəri müasir ədəbiyyatşünaslığın problemrinə yeni baxış tərzi ilə seçilir. Şöbə əməkdaşlarının elmi məqalələri və monoqrafik tədqiqatları uzərində aparılan araşdırmalardan layihədə istifadə olunur

P.İsayeva İnstitutun direktoru akademik A.B.Kudelin ve elmi katib filologiya elmləri doktoru Alla Əliveyanin göndərişi əsasında Ədəbiyyat nəzəriyysi şöbəsinin son illərdə ədəbiyyatşünaslıqla bağlı araşdırmaları ilə yaxından tanış olub.

Kserokopiya və CD-yə yazma xidmətlərindən istifadə edərək və satışda olan

| | |
|---|---|
| | ədəbiyyatları almaqla P.İsayeva material toplamışdır.<br>Bu müddətdə əldə olunan materialların yeniliyi və Azərbaycan kitab bazarında, internetdə olmaması ezamiyyətin layihənin yerinə yetrilməsindəki faydasını bir daha vurğulayır. |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)* |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(burada doldurmalı)* |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | *(burada doldurmalı)* |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı) AMEA Ədəbiyyat İnstitutunun müvafiq mütəxəssisləri ilə müzakirələr və tədqiqatlarından istifadə* |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı) Qazaxıstan, Rusiya, Türkiyə, Fransa, İtaliya, Avstriya və s. ölkələrdə layihə rəhbəri və iştirakçıların olduğu ezamiyyət və beynalxalq simpoziumlarda layihə ilə bağlı çıxış, təqdimat və müzakirələr. Azərbaycanda Müqayisəli ədəbiyyat Assosasiyası və BSU-nun təşkil etdiyi Müqayisəli ədəbiyyat beynəlxalq simpoziumunda Amerika, İtaliya və Türkiyə alimlərinin iştirakı ilə panel keçirilib.* |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | *(burada doldurmalı)*<br>Layihə mövzuları T.Məmməd və R.Qeybullayeva tərəfindən BSU-nun, ADA-nın müfafiq fənn sillabuslarına daxil edilmiş və tədris olunur. Layihə mövzuları əsasında tərtib olunmuş fənn sillabusu əsasında 2016-2017-ci il tədris ilindən AMEA-nın Ədəbiyyat İnstitunun magistaturasında tədris olunacaqdır (T.Məmməd). Layihə üzrə araşdırmaların nəticələrinə uyğun suallar doktoranturadan ixtisas minimumun imtahanlarına daxil edilmişdir. |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |

| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
|---|---|

*(burada doldurmalı)*

1. AMEA Ədəbiyyat İnstitutunun əməkdaşı Qazaxıstanda…

www.science.gov.az/news/open/2480

2. Azərbaycanlı alim Astana şəhərində elmi ... - Arxiv.az

https://arxiv.az/az/azertag.az/52407852

3. Azərbaycanlı alim Astana şəhərində elmi ezamiyyətdə olub ...

*https://az.cityinfo.az/.../azerbaycanli-alim-astana..*

Bakı. 23 sentyabr, AZƏRTAC

4. TahirəMəmməd «Ədəbiyyatnəzəriyyəsi: inkişafmərhələləri ...

*www.literature.az/?page=5&lang=aze.*

Bakı Slavyan Universiteti və Azərbaycan Müqayisəli Ədəbiyyat Assosiyasının 27-28 noyabr 2015-ci ildə keçiridiyi konfrans haqqında aşağıdakı sayt və jurnallarda məlumat gedərkən layihə ilə bağlı panel haqda da məlumat verilmişdir.

1) Avropa Müq Ədəbiyyat Assosiasiyasi
(REELC/ENCLS) 6th Biennial Congress. Organized in collaboration with CLAI (Comparative Literature Association of Ireland) ENCLS/REELC & CLAI

http://encls.net/?q=TBC

və
https://www.academia.edu/16408397/ENCLS_Newsletter_3_September_2015

2) BritaniyaMüqƏdəbiyyatAssosiasiyasi
http://bcla.org/2015/08/07/comparative-literature-and-culture-starting-points-of-national-literature-and-culture/

3) BritaniyaMüqƏd-t kafedralari
https://www.jiscmail.ac.uk/cgi-bin/webadmin?A1=ind1506&L=comparative-literature

4) İtaliya
enthymemajurnalı (Əd-t Nəzəriyyəsiüzrə) - N12, 2015 - olub

http://riviste.unimi.it/index.php/enthymema

5. Literature.az və Sənət.az Saytlarında layihə ilə bağlı məqalələr (3) çap olunmuşdur.

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

____________________
*(imza)*
" __" ________ 201_-cı il

**Baş məsləhətçi**
Qurbanova Səmirə Yaşar qızı

____________________
*(imza)*
" __" ________ 201_-cı il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Məmməd Tahirə Qəşəm qızı

____________________
*(imza)*
" __" ________ 201_-cı il